Xalq qəzeti.- 2022.- 2 fevral.- S. 5

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin regionlara səfərləri həmişə məhsuldar olub, yeni-yeni obyektlərin açılışı, eləcə də təməllərinin qoyulması ilə yadda qalıb. Dövlət başçısının Gəncəyə bugünlərdə baş tutan səfəri də istisna təşkil etmədi. Prezident ümummilli lider Heydər Əliyevin Gəncə şəhərinin mərkəzindəki abidəsini ziyarət etdi, önünə gül dəstəsi qoydu. O, Gəncə Dövlət Dram Teatrının yeni binasının açılışında iştirak etdi, Gəncə İdman Sarayında tikinti işlərinin gedişi ilə tanış oldu. Ölkə rəhbəri "Azərbaycan Dəmir Yolları" QSC-nin Gəncədəki lokomotiv deposunun istismara verilməsi mərasimində iştirak etdi, 2 saylı Gəncə regional "ASAN xidmət" Mərkəzinin açılışını etdi, Gəncə Memorial Kompleksinin təməlini qoydu.***

# Gəncədə Memorial Kompleksin təməlinin qoyulması təqdirəlayiq hadisədir

Memorial Kompleksin yaradılması məsələsi xüsusilə diqqətimizi çəkdi. Bu, olduqca vacib məsələdir və bilirik ki, dövlət başçısı belə məsələlərə həmişə həssaslıqla yanaşır. Odur ki, Prezident kompleksin yaradılacağı ərazi ilə tanış oldu. Ona məlumat verildi ki, Vətən müharibəsi dövründə Gəncə şəhəri oktyabrın 4-ü, 5-i, 8-i, 11-i və 17-də Ermənistan silahlı qüvvələri tərəfindən müxtəlif təyinatlı "Toçka-U", "Smerç", "SCUD" və digər raket qurğularından endirilən zərbələrə məruz qalıb. Nəticədə 6-sı uşaq olmaqla, 26 mülki şəxs həlak olub, 31-i uşaq olmaqla, 142 dinc sakin müxtəlif dərəcəli bədən xəsarətləri alıb.

Prezident İlham Əliyev Ermənistan silahlı qüvvələrinin Gəncə şəhərinə raket hücumları nəticəsində həlak olan dinc sakinlərin xatirə guşəsinin önünə gül dəstəsi qoydu və bu faciələrin unudulmamalı, Azərbaycan xalqı tərəfindən daim yad edilməli olduğunu bildirdi.

Dövlət başçısı qeyd etdi ki, münaqişə bölgəsindən kilometrlərlə uzaqda yerləşən ərazilərin qadağan olunmuş kaset bombaları ilə hədəfə alınması nə beynəlxalq hüquqa, nə Ermənistanın 1993-cü ildə ratifikasiya etdiyi Cenevrə konvensiyalarına və onların əlavə protokollarına, nə müharibənin əxlaq kodeksinə, nə də ümumiyyətlə heç bir mənəvi müstəviyə uyğun deyil. Bu, "alçaqcasına hücum"dur. Azərbaycan isə müharibənin ilk günündən heç bir halda mülki əhaliyə atəş açmayıb, yalnız legitim hərbi hədəfləri zərərsizləşdirib, qisasını döyüş meydanında alıb.

Ermənistanın raket hücumları nəticəsində həlak olmuş dinc sakinlərin xatirəsi isə bu ərazini ziyarətə gələn hər kəs tərəfindən ehtiramla anılır.

Azərbaycan Prezidentinin Gəncəyə səfəri həm də Ermənistanda baş qaldırmaq istəyən revanşistlərə növbəti xəbərdarlıq mesajları ilə yadda qaldı. Prezident bir daha kapitulyant ölkədəki radikal qüvvələrə, özəlliklə erməni faşistlərinə sərt xəbərdarlıqlarını



çatdırdı: "Erməni havadarları, Ermənistanın arxasında dayanan dairələr də bunu bilməli, dərk etməlidirlər və bizim tarixi missiyamızı qiymətləndirməlidirlər, biz hansı bəlanı məhv etdik. Biz təkcə öz torpağımızı azad etmədik, biz regionu, Cənubi Qafqazı bu vəhşi xislətli qüvvələrdən təmizlədik. Yenə də deyirəm, indi onlar artıq boynubükük şəkildə yaşayırlar. Ancaq heç kim qarantiya verə bilməz ki, yenə də baş qaldırmayacaqlar. Biz heç vaxt imkan verə bilmərik ki, bizim bölgədə erməni faşizmi baş qaldırsın, Ermənistan yenə də Azərbaycan üçün potensial təhdidə çevrilsin. Əgər bunu görsək, onu yerindəcə məhv edəcəyik. Bunu hər kəs bilməlidir".

Prezident İlham Əliyev erməni faşizmindən vasitə kimi istifadə edərək bölgəni qarışdırmaq, regionu oda qalamaq istəyən xarici dairələrə də səsləndi: "Biz erməni faşizmini məğlub etdik, ancaq o məhv edilməyib. Biz bundan sonra da çalışacağıq ki, erməni faşizminin bütün təzahürlərini yer üzündən silək və buna gücümüz çatır. Ancaq gərək digər ölkələr də, beynəlxalq ictimaiyyət də bu məsələdə həmrəy olsun".

***Əziz ƏLƏKBƏRLİ,***
***Milli Məclisin deputatı***